# RUSİYADA KİTABXANAÇILIQ-İNFORMASİYA FƏALİYYƏTİ ÜÇÜN PEŞƏ STANDARTININ HAZIRLANMASI METODİKASI

**QURBANOV A.İ.**
***BDU, Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı, dosent***
azadbey@mail.ru

**HÜSEYNOVA N.Z.**
***BDU, Kitabxanaşünaslıq kafedrasının doktarantı***
nubar.huseynova@mail.ru

*Məqalədə Rusiyada kitabxanaçılıq-informasiya fəaliyyəti sahəsində çalışan mütəxəssislərin peşə standartının hazırlanması metodikası geniş şəkildə araşdırılmış və hazırlanma mərhələləri xarakterizə edilmişdir.*

***Açar sözlər:*** *kitabxanaçılıq təhsili, peşə standartları, kitabxanaçılıq-informasiya fəaliyyəti*

Sahibkarların və peşəkar təhsil müəssisələrinin iqtisadiyyatın kadr sektorunda və sosial sferada ümumi maraq və məqsədləri vardır: birincilər yüksək ixtisaslı mütəxəssisləri alır, ikincilər isə onların hazırlanması ilə məşğuldur. Məsələdə marağı olan bütün tərəflərin səylərinin birləşdirilməsi bu vəzifələri həyata keçirmək imkanı verə bilər. İstehsalat innovasiyaları və əmək resurslarının mobilliyi ilə əlaqədar olaraq kadr sahəsindəki vəziyyətin ciddiyyətini hiss edən sahibkarlar belə bir qənaətə gəlirlər ki, təhsil müəssisələri ilə əməkdaşlıq münasibətlərinin qurulması mütəxəssis hazırlığının keyfiyyətinin yüksəlməsinə kömək ola bilər.

Sahibkarlarla peşəkar təhsil müəssisələri arasında qarşılıqlı əlaqələrin müxtəlif formalarını göstərmək olar: məqsədli hazırlıq, müəssisə və təşkilatlarda kafedraların filiallarının yaradılması, istehsalat, tədris və elmi məqsədlərlə bir-birinin texniki və proqram təchizatı ilə tanışlıq imkanının verilməsi, təcrübəli mütəxəssislərin tədris prosesinə cəlb edilməsi, müştərək tətbiqi tədqiqatların aparılması və s.

Kitabxana-informasiya fəaliyyəti sahəsində çalışan mütəxəssisin peşə standartı hazırlanması ideyası 2011–2013-cü illər ərzində regional və Ümumrusiya elmi-praktik konfranslarda Rusiya Kitabxanalar Assosiasiyasının forumlarında fəal şəkildə müzakirə edilmişdir. Bu ideyanın təşəbbüskarları yeni reqlamentin hazırlanmasında peşəkar birliyin bütün maraqlı tərəflərinin rəy və istəklərini nəzərə almaq şərtilə kitabxana-informasiya sferasının mütəxəssislərinə təqdim edilən tələblərin

aktuallaşdırılması və daha harmonik bir formaya salınması imkanını ortaya çıxardı. Bu sənədə kitabxana sahəsində kadrların hazırlanması üçün ictimai-peşəkar "sifariş" kimi baxıldı. Bu təklifə təcrübəli mütəxəssislərin münasibətini öyrənmək üçün peşə standartı konsepsiyası və onun layihələndirilməsi metodikası hazırlanaraq RKB-nin üzvü olan 276 kitabxanaya göndərilmişdir. 2012-ci ilin yanvar-iyun aylarında RF-nın 28 subyektində yerləşən mədəniyyət müəssisələrinin və kitabxanaların aparıcı mütəxəssislərindən və rəhbərlərindən olan 104 respondentdən cavab alınmışdır. Sorğuda iştirak edənlərin 84%-i nəinki peşə standartının layihələndirilməsini dəstəkləmiş, hətta onun yaradılmasında bu və ya digər şəkildə iştirak etmək istəyini ifadə etmişlər. Lakin pozitiv münasibətə və müxtəlif ərazi və auditoriyalarda dəstəklənməsinə baxmayaraq, ideyanı praktik realizəsinə nail olmaq mümkün olmurdu.

2012-ci ilin noyabr ayında Əmək və Sosial Müdafiə Nazirliyi 2013-2014-cü illərdə peşə standartlarının hazırlanması üçün plan-qrafik təsdiq edildi ki, onun əsasında ildə ən azı 400 peşə standartının hazırlanması nəzərdə tutulurdu. O cümlədən incəsənət, mədəniyyət, bədən tərbiyəsi və idman sahələrində 25 belə reqlamentin yaradılması planlaşdırılmışdı. RF hökumətinin 22.01.2013 tarixli 23№li qərarı ilə peşə standartı layihəsinin hazırlanması üçün iki variant təsbit edilmişdir: 1) təşəbbüs üzrə - layihəçilərin şəxsi vəsaitləri hesabına; 2) işlərin yerinə yetirilməsi üçün dövlət müqaviləsinin bağlanması yolu ilə - federal büdcə hesabına.

Peşə standartı peşə reqlamentlərinin razılaşdırılması üçün əsas ola bilər, o, müxtəlif kvalifikasiya səviyyələrinə aid olan mütəxəssislər üçün irəli sürülən tələbləri ehtiva edir. Buna peşəkar birliyin praktika, təhsil və idarəetmə seqmentlərinin razılaşdırılmış işi şəraitində nail olmaq mümkündür.

Peşə standartının hazırlanması metodikasını xarakterizə edərkən bu metodikanın elementlərindən vəzifə təlimatlarının və peşəkar fəaliyyətin digər reqlamentlərinn müəyyən edilməsi zaman yararlanmaq olar.

Kitabxanaçılıq-informasiya fəaliyyəti üçün peşə standartının hazırlanmasının hər bir mərhələsinin xarakteristikasını verək.

*1. Layihə təşəbbüsünün irəli sürülməsi.*

Peşə standartının yaradılması təşəbbüsünün irəli sürülməsi fəaliyyət (işlərin yerinə yetirilməsi üçün texniki vəzifələrin) proqramının formalaşdırılmasını; məqsəd və vəzifələrin təyin edilməsini; işlərin yerinə yetirilməsi müddətinin planlaşdırılmasını; layihə iştirakçılarının müəyyənləşdirilməsini; metodik vəsaitin işlənməsini; işlərin maliyyə və maddi təminat mənbələrinin seçimini nəzərdə tutur.

I mərhələnin mühüm vəzifəsi layihə iştirakçılarının - peşəkar birliyin bütün maraqlı tərəflərinin (elmi, təcrübi, təhsillə bağlı və idarəetmə) nümayəndələrinin seçimi və onlar arasında vəzifə bölgüsünün aparılmasıdır.





*2. İqtisadi fəaliyyət növlərinin müəyyən edilməsi.*

İqtisadi fəaliyyət növlərinin müəyyən edilməsi mərhələsində icra edilmiş işlərin nəticəsi kimi *peşə standartı pasportu* hazırlanmışdır. Pasport aşağıdakıları əks etdirir: a) iqtisadi fəaliyyətin təsvir edilən növlərini və onların əsas məqsədlərini; b) iqtisadi fəaliyyət növlərinin kvalifikasiya səviyyələri və mövcud reqlamentlə əlaqəsini.

İqtisadi fəaliyyət növlərinin müəyyənləşdirilməsi Ümumrusiya iqtisadi fəaliyyət növlərinin klassifikatoru (ОКВЭД) əsasında həyata keçirilir [120]. ÜİFNK (ОКВЭД), əsas etibarilə, heyətin tərkibi nəzərə alınaraq işçi və fəhlələrin sayının dəyərləndirilməsi, kadrların personalın kateqoriyaları üzrə, kvalifikasiya səviyyələrinə, mexanikləşmə dərəcəsinə, əmək şəraitinə və s.-ə görə yerləşdirilməsi edilməsi kimi məsələlərin həll edilməsi üçün yaradılmışdır.

Peşə standartının strukturu, qeyd edildiyi kimi, iqtisadi fəaliyyət növləri ilə qəbul edilmiş kvalifikasiya səviyyələrinin uzlaşdırılmasını nəzərdə tutur [2]. Kitabxana mütəxəssislərinin səviyyə baxımından differensasiyasını peşəkar fəaliyyət reqlamentlərində və mədəniyyət müəssisələrinin əməkhaqqını reqlamentləşdirən sənədlərdə təsbit edilmiş vəzifə tələblərinə uygun olaraq həyata keçirmək daha məntiqlidir.

*3. Peşəkar fəaliyyət növlərinin müəyyən edilməsi.*

Peşəkar fəaliyyət növlərinin müəyyən edilməsi hər bir peşəkar fəaliyyət növünün *funksional kartında* təsvir edilməsi deməkdir. Bu bölmədə ümumiləşmiş əmək funksiyalarının siyahısı və hər bir funksiyaya aid edilən kvalifikasiya səviyyəsi nəzərə alınmaq şərti ilə onların əmək funksiyalarına differensasiya edilməsi göstərilir.

*4. Peşəkar standart vahidlərinin müəyyənləşdirilməsi*

Bu mərhələdə peşə satandartının əsas elementinin müəyyən edilməsi həyata keçirilir. Həmin elementlər öncəki mərhələdə qeyd edilən ümumiləşmiş əmək funksiyalarını müfəssəl şəkildə xarakterizə edirlər.

*5. Peşə standartı layihəsinin formalaşdırılması*

Peşə standartının formalaşdırılması "Peşə standartı maketi"ndə göstərilmiş qaydalar əsasında həyata keçirilir [1].

*6. Peşə standartının resenziyalaşdırılması və razılaşdırılması.*

Kargüzarlıq normalarına görə, hər hansı bir sənəd hüquqi qüvvə (imzalanma və ya təsdiq edilmə) kəsb edənə qədər layihə hesab edilir. Hüquqi təsdiqlənmədən öncə sənəd resenziyalaşdırma və razılaşdırma proseduru keçilməlidir.

Razılaşdırma sənədin layihəsinin müzakirəsini nəzərdə tutur. Müzakirə seminar, toplantı, dairəvi stol, real və ya virtual diskussiya şəklində keçirilə bilər. Nəticədə lazımi sənədlər paketi formalaşdırılır. Bu sənədlər əmək fəaliyyəti sahəsinin peşə standartında təqdim edilən xarakteristikalarının əsaslı

olmasını təsdiqləyir. Razılaşdırmanın nəticələrinə istinadən sənəd layihəsi üzərində yekun işlər həyata keçirilir.

Müzakirədən keçmiş və müzakirənin nəticələri əsasında yekun variantı hazırlanmış peşə standartı layihəsi müəllifi tərəfindən bir daha nəzərdən keçirilərək RF-nın Əmək və Sosial Müdafiə Nazirliyinin ekspertizasına təqdim edilir.

7. *Peşə standartının qeydiyyata alınması*

Peşə standartı haqqında məlumat peşə standartları reyestrinə (dəftərinə) daxil edilir. Reyestrin yaradılması və onunla iş RF-nın Əmək və Sosial Müdafiə Nazirliyi tərəfindən icra edilir.

Peşə standartı açıq strukturlu və aktuallaşma üçün komfortludur. Peşə standartının təşəbbüskar qrupu və ya onu hazırlayanlar ehtiyac olan halda, sənədin aktuallaşdırılması ərizəsi ilə müraciət və onun məzmununa lazımi düzəlişlər əlavə edə bilərlər. Düzəlişlərin əlavəsi peşə standartının hazırlanması üçün nəzərdə tutulmuş qayda üzrə həyata keçirilir.

## ƏDƏBİYYAT

1. *Пилко Ирина Семеновна, Технологический подход к библиотеке как профессиональная методология и идеология // Вузовская наука - библиотечной практике : науч.-практ. сборник / [науч. ред. И. С. Пилко] Кемерово : КемГУКИ, 2007 - С. 10-22 :*

2. *Пилко Ирина Семеновна, Абалакова Ольга Владимировна. Разработка профессионального стандарта специалиста в области библиотечно-информационной деятельности. Вестник Кемеровского государственного университета культуры и искусств.- В. № 27. – 2014*

3. *П.И.Семеновна, Л.Г.Тараненко, М.Г.Ли, О.В.Абалакова. Библиотечно-информационное образование: новые концепции и технологии развития//монография/ [науч. ред. В.М.Григоров] Москва: Литера, 2014*

## МЕТОДЫ ПОДГОТОВКИ ПРОФЕССИОНАЛЬНЫХ СТАНДАРТОВ ДЛЯ ДЕЯТЕЛЬНОСТИ БИБЛИОТЕЧНОЙ ИНФОРМАЦИИ В РОССИИ

КУРБАНОВ А.И., ГУСЕЙНОВА Н.З.

### *РЕЗЮМЕ*

*В статье исследован метод профессиональных стандартов для специалистов, работающих в сфере Российской библиотечной информации и описаны этапы подготовки .*





***Ключевые слова:*** *библиотечное образование, профессиональные стандарты, деятельность библиотечной информации*

## THE METHOD OF PREPARATION OF PROFESSIONAL STANDARDS FOR LIBRARY AND INFORMATION ACTIVITIES IN RUSSIA

KURBANOV A.İ., HUSEYNOVA N.Z.

### *SUMMARY*

*In the article the method of professional standards of the specialists working the sphere of Russian library information is widely investigated and preparation stages are characterised.*

***Key words:*** *library education, professional standart, library information activities*